WESTERN CASPIAN UNIVERSITY

Qərbi Kaspi Universiteti

Respublika Konfransı

# “Aqrar təsərrüfatların inkişafının yeni istiqamətləri və ətraf mühitin mühafizəsi” mövzusunda respublika elmi konfransı

**( ONLAYN )**

**30 yanvar 2021-ci il. Bakı, Azərbaycan**

# Republican scientific-practical conference "New directions for the development of agriculture and environmental protection"

**( ONLİNE )**

**January 30, 2021. Baku, Azerbaijan**

***ISSN:2227-5118***

# “Aqrar təsərrüfatların inkişafının yeni istiqamətləri və ətraf mühitin mühafizəsi” mövzusunda respublika elmi konfransı

## (ONLAYN)

## 30 yanvar 2021-ci il. Bakı, Azərbaycan

# Republican scientific-practical conference "New directions for the development of agriculture and environmental protection"

## (ONLINE)

## January 30th, 2021. Baku, Azerbaijan

# İNCƏSƏNƏT VƏ ƏTRAF MÜHİTİN SİNTEZİ

**Ağayev Emil Raul oğlu**
Azərbaycan turizm və menecment universiteti
"İctimai fənlər" kafedrasının müəllimi
emilaghayev93@mail.ru

**Giriş.** Müasir dünyanın inkişafı sənət anlayışına yeniliklər gətirir. Ətraf mühitin və incəsənətin sintezi bu gün daxilən təbiətə bağlı olan bir çox sənətkarların əsas yaradıcılıq obyektləridir. Hələ mağara rəsmlərindən başlayaraq, impressionistlərin zamanında isə yüksəlişini yaşayan yaradıcılıq əsərləri görə bilərik.Bu və ya digər şəkildə təbiət əsrlər boyu yaradıcılıq sənətinin prioritet mövzusu olaraq qalmışdır. İnsanı əhatə edən ətraf mühitin hər bir elementi onun üçün sənət anlayışıdır. Belə layihələr real mühitə bənzər, tamaşaçını əhatə edən geniş məkan kompozisiyasıdır. Həmçinin tamaşaçıları hərəkətə gətirən bir oyun məkanlarıdır xarakterizə etmək olar. XX əsrin sonunda geniş yayılmış cərəyandır, rəssamlar, mühəndislər, texniklər tərəfindən təşkil olunmuş sərbəst art-məkan anlayışı yeni və daha maraqlı ideyalara gətirib çıxarırdı. Həmin dövrdən başlayaraq məskən mühitinin estetik təşkili bir çox mütəxəssislərin tədqiqat predmetinə çevrilərək, estetik baxış yaratmışdır. Öz növbəsində ətraf mühit layihələrində instalyasiyalar, aksiyalar, performanslardan geniş istifadə edilir. Mühitin sərbəst olaraq məkan kimi seçilməsini rəssamlar daha azad sənət kimi təqdim edirdilər. Ətraf mühit layihələri ya interyerdə, ya da təbiətdə (land art) xüsusilə təşkil olunaraq, video, slayd və s. İnstalyasiyalar sistemi ilə daha da tamaşaçıda maraq doğurur. Bunun nəticəsində xüsusi vizual və aktiv məkan mühiti yaradır, tamaşaçını ovsunlayıb öz qanunlarına tabe edir. Ətraf mühit layihələrində bir qayda olaraq, insana xidmət edən əşyalar, maşın və mexanizm sistemləri istifadə olunur.



**Xristo Yavaşev. Reyxstaqın bürünməsi (1995)**

**İncəsənət və ətraf mühitin sintezi layihələri.** Hər bir cərəyanın inkişaf etməsi rəssamların yeni layihələrinin uğurlu olaraq tarixdə qalması ilə nəticələnir. Ətraf mühit layihələri ilə daima düşündürən məşhur amerikalı rəssam və heykəltaraş Corc Siqalın (1924-2000) adını xüsusilə vurğulamalıyıq. Onun heykəlləri azad məkanlarda, ətraf mühit üçün döyünərək yaradılırdı. Ətraf mühitin land-art (torpaq sənəti) adlanan istiqaməti XX əsrin sonunda real mənzərəni əsas bədii material və obyekt kimi istifadə edən cərəyandır. Buraya rəssamlar tərəfindən daşlardan yığılmış qeyri-adi kompozisiyalar, qayaların rənglənməsi və s. aiddir. Adətən bu layihələr üçün əzəli landşaftlar seçilirdi. Belə layihələr foto-arta yaxındır, çünki tamaşaçıların əksəriyyəti bunları ancaq foto silsilələrdə seyr edə bilər. Land-artın aparıcı nümayəndəsi Xristo Yavaşevdir. Layihələrində daha çox gümüşü və ya ağ rəngli parça ilə Parisdə Pon-Nöf körpüsünü, Berlində Reyxstaq binasını kimi layihələr təqdim etmişdi. Ətraf mühitin bir qolu olan land-art layihələrində



**Xristo Yavaşev Parisdə Pon-Nöf körpüsünün bürünməsi (1985)**

torpağın özü sənət obyekti və subyektinə çevrilmişdir. Nəticə. İncəsənət və ətraf mühitin sintezi hər bir sənəti hiss edən insana azadlıq, sərbəstlik verdi. Azad məkanda daha dolğun, sakit, tamaşaçının diqqətini cəlb edən layihələr təqdim etdi.

**Açar sözlər:***İncəsənət, ətraf mühit, rəssam, təbiət, impressionizm*

## Ədəbiyyat

1. Əsgərova X. “Müasir dünya incəsənətində cərəyanlar, istiqamətlər və sənət növləri” metodik vəsait, Bakı 2017, Ecoprint 66 s
2. https://en.wikipedia.org/wiki/Christo_and_ Jeanne-Claude
3. https://en.wikipedia.org/wiki/Modern_art
4. https://en.wikipedia.org/wiki/Land_art
5. https://en.wikipedia.org/wiki/Environmental_art

## SUMMARY

## ART AND SYNTHESIS OF THE ENVIRONMENT

Art and the environment are always inextricably linked. In this article, the issue of synthesis is brought to the fore and analyzed on the basis of the works of artists.

**Keywords**: *Art, environment, artist, nature, impressionism*

## РЕЗЮМЕ

## ИСКУССТВО И СИНТЕЗ СРЕДЫ

Искусство и окружающая среда всегда тесно переплетаются. В данной статье проблема синтеза выдвигается на первый план и анализируется на основе произведений художников.

**Ключевые слова:** *искусство, среда, художник, природа, импрессионизм.*